Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Cənubi Qafqazda rusdilli azlığa iki münasibət - Azərbaycan və Ermənistan modelləri..

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**Bu gün Azərbaycanda 150 mindən çox rus yaşayır, tədrisin rus dilində aparıldığı məktəblər və ali təhsil ocaqları, Rus Dram Teatrı, Bakı Slavyan Universiteti, beş rus pravoslav kilsəsi fəaliyyət göstərir, böyük rus şairi Aleksandr Puşkinin abidəsinin ucaldığı bağ bakılıların sevimli istirahət məkanıdır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Rus icması diqqət və qayğı ilə əhatə olunub və cəmiyyətin tamhüquqlu üzvüdür.**

### Azərbaycan ərazisində ilk rus yaşayış məskənləri XIX əsrin 30-cu illərində meydana gəlib

Azərbaycanda əhalinin milli tərkibində həm sayca, həm də xüsusi çəkisinə görə ikinci yeri ruslar tutur. XIX əsrin 30-cu illərindən sonra Azərbaycana köçürülən rus əhalisini iki qrupa bölmək olar. Həmin əsrin 70-80-ci illərindən sonra burada məskunlaşan rusların bir qismi müflisləşmiş və yerlərdə torpaqdan məhrum olmuş kəndlilər, digər qrup isə xristian dininin müxtəlif cərəyanlarına məxsus olan təriqətçilər idi. XX əsrin 20-30-cu illərində respublikaya rusların miqrasiyası güclü olmuşdur. Onlar təsərrüfatın müxtəlif sahələrinə aid mütəxəssislərdən, alimlərdən, fəhlələrdən ibarət idi. Azərbaycan ərazisində ilk rus yaşayış məskənləri XIX əsrin 30-cu illərində meydana gəlib. Bunlar əsasən çar hökuməti tərəfindən sürgün edilmiş və ya Rusiyanın cənub əyalətlərindən könüllü olaraq köçüb gəlmiş malakanlar, duxoborlar, subbotniklər olub.

### Ruslar Azərbaycan millətinin tərkib hissəsi kimi dövlətçiliyə sanballı töhfələrini veriblər

Azərbaycan ərazisində bu gün də rusların kompakt yaşayış məskənləri qorunmaqdadır. Onlardan ən böyüyü İsmayıllı rayonundakı İvanovka kəndidir ki, burada 3 min nəfərdən artıq rus yaşayır. Nikitinin adını daşıyan kolxoz isə respublikadakı ən stabil təsərrüfat olaraq qalır. XIX əsrdə ölkəmizə köçürülən ruslar həm Bakı və Gəncə kimi böyük şəhərlərdə, həm də bölgələrdə yerləşdirilib. Ruslar Azərbaycan millətinin tərkib hissəsi kimi iqtisadiyyata, dövlətçiliyə, elmə, mədəniyyətə və təhsilə sanballı töhfələrini veriblər. Bakı neftçisi Nikolay Konstantinoviç Baybakovun həyatı buna bariz nümunədir. Vaxtı ilə o, Azərbaycan neft kompleksində rəhbər vəzifələrdən birini tutmuş, Neft Sənaye Xalq Komissarı, sonra SSRİ Dövlət Plan Komitəsinin sədri olub. Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev N.K.Baybakovun səmərəli fəaliyyətini unutmamış və 1995, 1998, 1999-cu illərdə onu Azərbaycanda şəxsən qəbul edib. Rusiya-Azərbaycan dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə N.K.Baybakov "Şöhrət" Ordeni ilə təltif olunub.

### Bütün digər vətəndaşlar kimi, ruslar da öz dini mərasimlərini azad keçirmək imkanına malikdir

Ölkəmizin bütün tarixi boyu ilk dəfə olaraq Rus Provaslav Kilsəsinin Başçısı, Moskva Ümumrusiya Patriarxı, mərhum II Aleksey Azərbaycana səfər etdi. Bu tarixi səfər bir daha təsdiq edirdi ki, Azərbaycan respublikada yaşayan rus vətəndaşlarına, provaslav xristianlara necə böyük diqqət və qayğı göstərir. Bütün digər vətəndaşlar kimi ruslar da öz dini mərasimlərini azad keçirmək imkanına malikdir. Ölkədə 10-dan çox molokan dini icması, dörd adventist icması, yeddi xristian-baptist yevangelist icması fəaliyyətdədir. 90-cı illərin ortalarında Rus Pravoslav Kilsəsinin (RPK) Müqəddəs Sinodunun qərarı ilə mərkəzi Bakıda olan müstəqil Xəzər yeparxiyası bərpa edilib. Rus mədəniyyəti və rus dilinin qorunması, məktəblərdə rus dilində dərslərin tədris olunması, Bakı Slavyan Universiteti kimi unikal tədris müəssisəsinin yaradılması, rus dilində qəzet və jurnalların nəşri, Bakı şəhərində A.S.Puşkinin abidəsinin ucaldılması və s. tədbirlər bütünlüklə Azərbaycan dövlətinin demokratik cəmiyyət quruculuğundakı səmərəli milli siyasətini bir daha təsdiq edir.

### Rus dilində həm dövlət, həm də özəl kanallarda xəbərlər proqramı təqdim olunur...

Rus dili məişətdə hələ də geniş istifadə olunur. Əksər şəhərlilərin və hətta kənd sakinlərinin danışığında Azərbaycan dilinə rus sözlərinin qatılması nadir hal deyil. Rus dili və rus mədəniyyətinin əhatə dairəsi və təsiri rusların respublika əhalisindəki xüsusi çəkisindən olduqca böyükdür. Nə qədər təzadlı olsa da, bu gün ölkəmizdə rus dilinin və rus mədəniyyətinin əsas daşıyıcıları ruslar yox, əksəriyyətini rus təhsili almış azərbaycanlılar təşkil edən rusdilli şəhər sakinləridir. Rusiyaya və rus mədəniyyətinə olan böyük maraq hələ də qalmaqdadır. Hazırda rus dilində həm dövlət, həm də özəl kanallarda xəbərlər proqramı təqdim olunur, ayrıca CBS kanalı isə birbaşa rus dilində yayımlanır.

Azərbaycandakı Rus İcmasının 2015-ci ildən roa.az saytı fəaliyyət göstərir. Bu saytda respublikamızın daxili həyatı və rus icmasının fəaliyyəti haqda məlumatlar yayımlanır. Rus icmasının fəaliyyəti - tədbirləri, icma rəhbərliyinin çıxışları, məqalələri, müraciətləri saytın fəaliyyətinin əsas hissəsini təşkil edir. Azərbaycanda yaşayan rusların bir neçə ictimai və mədəni birliyi ("Sodrujestvo", Slavyan Mədəniyyət Mərkəzi və s.) mövcuddur. Bunların sırasında Milli Məclisin deputatı Mixail Zabelinin (o, hakim Yeni Azərbaycan Partiyasının siyahısından keçib) başçılıq etdiyi rus icması daha çox nüfuzludur.

### Ermənistanda yalnız Rusiyanın hərbi bazalarında xidmət keçən və onların ailə üzvləri olan rus millətinin nümayəndələrinə rast gəlmək mümkündür

Ermənistanda isə vəziyyət tam fərqlidir. Həmin ölkədə milli azlıqlara qarşı ictimai həyatda baş verən mənfi münasibət özünü müxtəlif formalarda göstərir. Ermənistanda yaşayan bütün xalqlar demək olar ki, bu ayrı-seçkiliyə məruz qalıb. YUNESKO-da səsvermə nəticəsinə əsasən "monoetnik dövlət" elə anlayışdır ki, burada mədəni sərhədlər siyasi sərhədlərlə toqquşur. Belə ölkələrdə yalnız bir millətin nümayəndəsi olur, digər milli nümayəndələrin sayı ya olmur ya da nəzərə çarpmıyacaq dərəcədə az olur. Monoetniklik özlüyündə mədəni pluralizm və ya multikulturakizmlə ciddi toqquşur. Ermənistan monoetnik ölkədir. Bu xüsusiyyəti ermənilər süni olaraq yaradıblar. Dənizdən dənizə böyük Ermənistan yaratmaq xülyası ilə yaşayan ermənilər ağılasığmaz vəhşiliklərə əl atıblar. Ermənistanın monoetnik dövlət siyasətinin nəticəsi olaraq Ermənistanda hal-hazırda bir nəfər belə azərbaycanlı qalmayıb. Ermənistanda ruslara qarşı da aqresiv münasibət var. Həmin ölkədə demək olar ki, Ermənistan vətəndaşı olan ruslar qalmayıb. Ermənistanda yalnız Rusiyanın hərbi bazalarında xidmət keçən və onların ailə üzvləri olan rus millətinin nümayəndələrinə rast gəlmək mümkündür.



### Ruslar guya xristianların Azərbaycanda sıxışdırılması ilə bağlı ermənilərin yaydığı saxta məlumata qarşı çıxıb…

Azərbaycanda 10 milyon əhali var. Bunun 96 faizi müsəlman, 4 faizə qədəri isə qeyri-müsəlman əhalidir. Bütün dinlərin nümayəndələri Azərbaycanda sülh və tolerant şəraitdə yaşayır. Azərbaycanda yaşayan ruslar 44 günlük müharibə zamanı Ermənistanın ölkəmizə hərbi təcavüzü, həmçinin Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəfə almasına sərt etiraz ediblər. Onlar xüsusilə də mülki vətəndaşları, azyaşlı uşaqları, qadınları yaşadıqları evlərdə hədəf alan hücumları pislədiklərini deyiblər. 60 yaşını tamamlayan Olqa Doqadina öz vətənim dediyi Azərbaycana dəstəyini bildirmək üçün müraciət edib. Yeraslav Trifonov isə Rus Dram teatrının aktyorudur. O da Bakıda doğulub, Azərbaycan vətəndaşıdır. Deyir ki, Azərbaycan uğrunda ölümə də gedər: "Azərbaycan özünün tolerantlığı və multukulturalizm siyasəti ilə seçilir. Elə buna görə də ölkəmizdə yaşayan digər millətlər də bizimlə birlikdə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparmağa hazırdırlar". Elə həmin vaxt Azərbaycanda yaşayan ruslar ermənilərin yaydığı yalan informasiyaları ifşa etmək üçün videomüraciət yayıblar. Onlar xristianların Azərbaycanda sıxışdırılması ilə bağlı ermənilərin yaydığı saxta məlumata qarşı çıxaraq, bildiriblər ki, burada sakit yaşayırlar və ölkəmizdə din azadlığı var: "Biz xristianlar Azərbaycanda xoşbəxt yaşayırıq. Bu gün Azərbaycan öz torpaqları uğrunda döyüşür. Biz bütün həyatımız boyu Azərbaycanda yaşayan xristianlarıq. Bizim ölkəmizdə din azadlığı var".

### "Biz ölkələrimiz arasında mövcud olan münasibətlərdən çox məmnunuq"

Rusiyada Ümumrusiya Azərbaycan Konqresi bağlananda Azərbaycan Rus İcmasının rəhbəri başda olmaqla, ölkənin rusdilli əhalisini birləşdirən bir sıra ictimai təşkilatların rəhbərləri Ümumrusiya Azərbaycan Konqresinin bağlanması ilə əlaqədar Rusiya prezidenti Vladimir Putinə müraciət ünvanlayıblar. Həmin müraciətdə deyilirdi: "Biz anlayırıq ki, bu qərar siyasi xarakter daşımır və iki ölkə arasında münasibətlərə heç cür mənfi təsir etməyəcək. Azərbaycanda yaşayan rusiyalı həmvətənlilər ölkənin ali rəhbərliyinin və bütün Azərbaycan cəmiyyətinin rus dilinin qorunması, millətlərimizin mədəniyyət və ənənələrinin dəstəklənməsi və inkişafı istiqamətindəki qayğıkeş münasibətini yüksək qiymətləndirir. Biz ölkələrimiz arasında mövcud olan münasibətlərdən çox məmnunuq. Onun əsasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənəsi, bir-birinin maraqlarına hörmət dayanır".

### "Azərbaycan xalqının gözəl bayramları burada doğulan, böyüyüb boya-başa çatan rusların qanına hopub"

Azərbaycandakı rus icmasının rəhbəri, Milli Məclisin deputatı Mixail Zabelinin sözlərinə görə, Azərbaycanda yaşayan digər xalqlar milliyyət baxımından fərqləndirilmir. Özlərinə qarşı hər zaman isti münasibətin şahidi olduğunu deyən icma rəhbəri qeyd etdi ki, bu gün ruslar Azərbaycandakı ən çoxsaylı milli azlıqlardan biridir: "Hazırda Azərbaycanda 150 min nəfərə yaxın rus yaşayır. Rus icması respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında yaxından iştirak edir, dövlət qurumlarında, icra orqanlarında, parlamentdə təmsil olunur. Rus icmasının təşkilatlanması 1993-cü ildə başlanıb. Azərbaycan Rus İcmasını təşkilat olaraq yaratmaqda məqsədimiz buradakı rus əhalisinin müstəqil Azərbaycanın yeni həyatına uyğunlaşmasına kömək etmək idi. Heydər Əliyev Azərbaycan Prezidenti seçiləndən sonra ilk dəfə olaraq 1994-cü ilin yanvarında bizim keçirdiyimiz Milad bayramı konsertində iştirak etdi. O, insanların qarşısında çıxış edərək dedi: "Mən Azərbaycan Prezidenti kimi sizin hüquqlarınızın müdafiəsinin qarantıyam. Heç yerə getməyin və hesab edin ki, bura sizin vətəninizdir". Ruslar bu dəyərli sözlərə inandılar və Azərbaycanda qaldılar".

Mixail Zabelin deyir ki, indi Azərbaycan Rus İcması təşkilati cəhətdən möhkəmlənərək respublikada müəyyən nüfuz qazanıb. İcmanın fəaliyyətində Rusiya Mədəniyyət Mərkəzinin xüsusi yeri var: "Mərkəzdə mədəni fəaliyyət üçün hər cür şərait yaradılıb. Bunun üçün Azərbaycan dövlətinə minnətdarıq. Rus icması özünü Azərbaycan cəmiyyətindən ayıra bilməz. Biz bu xalqın bir hissəsiyik. Azərbaycan xalqı rus xalqına yaxındır. Qonaqpərvərlik, xoş rəftar, başqa xalqların nümayəndələrinə hörmətlə yanaşma - bunlar bizi birləşdirən ümumi oxşarlıqlardır. Azərbaycan xalqının gözəl bayramları burada doğulan, böyüyüb boya-başa çatan rusların qanına hopub. Bizim bayramlarımız heç vaxt milli mahnı və rəqs ifa edilmədən keçirilmir".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**